# Dünya mədəniyyəti inkişafına böyük töhfə

## İnosensia Heredia: «Tamaşaçıların ardı kəsilməyən alqışları və isti münasibət bizi daha həvəslə oxumağa ruhlandırırdı»



Kubanın "Santiaguero" caz qrupunun üzvü İnosensia Heredia jurnalistlərə verdiyi müsahibədə Azərbaycana ilk dəfə gəldiyini və "Santiaguero" qrupunun üzvü ölkəmizdə gedən sürətli inkişafa, insanların qonaqpərvərliyinə valeh olduğunu bildirmişdir. İ. Heredia daha sonra demişdir: "Burada biz Kubanın ənənəvi musiqisini təmsil edirik. Bizim üçün bu, böyük uğurdur. Burada yerli əhalinin və xarici qonaqların olması məsuliyyətimizi daha da artırdı və həmişəkindən də yaxşı çıxış etməyə çalışdıq. Tamaşaçıların ardı kəsilməyən alqışları bizi daha həvəslə oxumağa ruhlandırırdı. Azərbaycan Qafqazın ən gözəl məkanlarındandır. Gözəl təbiət, ürəkaçan mənzərə insanda unudulmaz təəssürat oyadır. Buralara yenidən gəlmək istərdim".

## Qəbələdə Koreyanın məşhur rəqs qrupunun və taekvondoçuların çıxışları maraqla qarşılanmışdır



Mədəniyyət və Turizm Nazirliyinin və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının birgə təşkilatçılığı ilə Qəbələ Mədəniyyət Mərkəzində Koreya Respublikasının Kyunq Hi Universitetinin rəqs qrupunun konserti olmuşdur.

Tədbirdə "Koreya təəssüratı", "Rəqs üçün", "Təbrik rəqsi" və digər maraqlı rəqs nömrələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

Daha sonra Dünya Taekvondo Federasiyasının yığma komandasının üzvlərinin təqdim etdikləri çətin və həyəcanlı nümunələr tamaşaçılarda böyük marağa səbəb olmuşdur.

Sonda iştirakçılara hədiyyələr təqdim edilmişdir.

**Foto S. Umuyevindir.**

## Karmela Korrado Karuzo: «Azərbaycanda sürətli inkişafın şahidi oldum»

"Azərbaycanda sürətli inkişafın şahidi oldum. Festivalın tamaşaçılarının musiqi duyumu və qonaqpərvərliyi çox yüksəkdir".

Bu sözləri V Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçısı, məşhur italiyalı vokalçı Karmela Korrado Karuzo müsahibəsində demişdir. Qəbələyə ilk dəfə gəldiyini deyən italiyalı ifaçı şəhərin gözəlliyindən, xüsusilə, gecələrinin möhtəşəmliyindən söz açmışdır.



Paytaxtdan xeyli uzaq bir yerdə bu qədər insanın klassik musiqiyə yüksək səviyyədə maraq göstərməsinin onu valeh etdiyini söyləyən Karmela Korrado Karuzo Qəbələ torpağında dünya şöhrətli musiqiçilərin bir araya gəlmələrini mühüm hadisə kimi qiymətləndirərək demişdir: "İndi burada olduğum üçün çox şadam və növbəti illərdə də bu festivalda iştirak etməkdən məmnun olardım. Böyük sənətkarlarla birgə beynəlxalq musiqi festivalında təmsil olunmağımla fəxr edirəm. Auditoriyanın festival çərçivəsində keçirilən konsertlərə böyük marağı da məni heyran edir".

## V Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində muğam axşamı tamaşaçıları heyran etmişdir

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə reallaşdırılan V Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində iyulun 31-də muğam axşamı keçirilmişdir.

AzərTAc xəbər verir ki, "Ustaddan şagirdə" adlı konsertdə tanınmış xanəndə, xalq artisti Mənsum İbrahimov, müxtəlif nüfuzlu festivalların iştirakçısı və beynəlxalq müsabiqələr laureatları Arzu Əliyeva və Aytən Məhərrəmova çıxış etmişlər.

Ümumilikdə 1000-dən çox tamaşaçının izlədiyi konsertdə muğam kompozisiyası və bəstəkarlarımızın əsərləri səsləndirilmişdir.

Çoxsaylı tamaşaçılar qarşısında geniş proqramla çıxış edən muğam ifaçılarını əməkdar artistlər-Elçin Həşimov (tar) və Elnur Əhmədov (kamança) müşayiət etmişlər.

Xanəndələrimizin ifa etdikləri "Bayatı-Şiraz", "Mahur", "Segah", "Şahnaz", "Rast" muğamları, eləcə də "Qarabağ şikəstəsi" tamaşaçılar tərəfindən heyranlıqla qarşılanmışdır.

Avqustun 6-dək davam edəcək musiqi bayramında Azərbaycan və xarici ölkələrdən görkəmli musiqiçilər, bədii kollektivlər və solistlər iştirak edirlər.

# Musiqinin Qəbələ ladı

Beşinci Qəbələ musiqi festivalının afişalarını Bakının prospektlərində görəndə qəlbimdə yayın isti günlərinin hərarəti bir anlığa Böyük Qafqazın sıldırımlarından baş götürən Dəmirapa-ran çayının iti axınına qarışan musiqi ahənginin sərinliyi ilə əvəz olundu. Maraqlısı odur ki, Qəbələnin ən füsunkar məkanında qurulan bu beynəlxalq musiqi məclisi təkcə mədəniyyət hadisəsi deyil, həm də təbiət hadisəsidir. Artıq siz Şubertin, Vivaldinin, Bethovenin, Baxın, Çaykovskinin, Üzeyir Hacıbəylinin, Niyazinin, Fikrət Əmirovun əsərlərinin dünyanın ən məşhur simfonik orkestlərinin ifasında yayılan sədalarının, Mənsum İbrahimovun səs atəşindən dağlarda əks-səda verən lirik ahəngin Qəbələnin bənzərsiz təbiət aləmində zümzüməyə, harmonik duyğuya çevrildiyinin şahidi olursunuz. Qəbələdə anadan olmuş, tanınmış şair Tacəddin Şahdağlının deyimi olmasın, bu ahəngin zili zirvələrdir, bəmi dərələr. Sanki gecələrin çiynində ulduzlar qatar-qatar misralanıb təbiət-mədəniyyət sintezinin Qəbələ ovqatına tamaşa edirlər. Bu ahəngə Azərbaycanın ən hündür dağ zirvəsi Bazardüzü dirijorluq edir.

Qəbələ Beynəlxalq Musiqi festivalında Azərbaycan dövlət simfonik orkestrinin ifasında dahi Üzeyir Hacıbəylinin "Koroğlu" üverturası bu mənzərənin bənzərsiz simvoludur. Koroğlunun musiqi ilə ifadə olunan döyüş simgəsi orkestrin isti nəfəsindən pərdə-pərdə dağlara yayılır, əks-səda verir və nəhayət insanı çağırır. Düşünürəm ki, burada olarkən bu ahəngi görüb, duymamaq mümkün deyil. Əgər biz Azərbaycan kimliyini, hərarətini, çağırışını, fəlsəfi miqyasını, təcəlla edən ruhunu görmək və göstərmək istəyiriksə Qəbələ Beynəlxalq Musiqi Festivalı çox mükəmməl örnəklərdəndir. Xüsusilə, xaricdən gələn insanlara musiqi və təbiət sintezinin Qəbələ harmoniyasını göstərmək vətəndaşlıq missiyasıdır.

Qəbələ beynəlxalq musiqi festivalında daha çox simfonik ifalar yer alır. Düşünürəm ki, bunun tarixlə bir dialoq bağlantısı var. Qəbələ dünyanın çox nadir şəhərlərindəndir ki, aşağı-yuxarı 8-9 əsr Qədim Qafqaz Albaniyasının paytaxtı olub. Burada tarixin çox dərin qatlarında simfonik notlarda ifa olunan sivilizasiya izləri var. Bəzən tarix öz möhtəşəm keçmişini hansısa simvollarla xatırlayır. Bu gün dünyanı yenidən cəlb edən Qəbələdə qurulan mötəbər musiqi məclisinə obrazlı desək, dirijorluq edən Bazardüzü zirvəsi də, musiqi sədasını iti axına qovuşdurub dərələri fəth edən Dəmiraparan çayı da tarixin Qəbələ zirvəsinə min illərdir şahidlik edirlər.

Əsrlər boyu paytaxt olan Qəbələdə ifa olunan simfonik musiqinin ladı insanı kübarlaşdırır, düşüncə ahənginə qərq edir. Bu musiqi festivalının bir cəhəti də ona görə əhəmiyyətlidir ki, insanlar saatlarla professional düşüncə musiqisinin ritmi ilə nəfəs alır və buna köklənirlər. Deməli, musiqinin—təbiətin Qəbələ ladı zövqlərin yenidən canlanmasına, cilalanmasına yardım edir.

**Cəsarət VALEHLİ,**
**İTV-nin departament direktoru,**
**fəlsəfə doktoru, dosent.**